# Tovuzda yubiley yubileyə qarışdı

**Tovuzda rayon icra hakimiyyətinin, Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin, Azərbaycan Aşıqlar Birliyinin və Tovuz Xeyriyyə Cəmiyyətinin təşkilatçılığı ilə aşıq sənətinin görkəmli nümayəndələri aşıq Əkbər Cəfərovun 90 və aşıq Əlixan Niftəliyevin 80 illiyinə həsr olunmuş "Sənətə bağlı ömür" adlı yubiley tədbiri keçirilmişdir.**






Tədbiri giriş sözü ilə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov açaraq qeyd etmişdir ki, milli mədəniyyətimizin incisi olan aşıq sənətinə Ulu Öndər Heydər Əliyev yüksək dəyər verirdi: "Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunmasına, o cümlədən aşıq sənətinə xüsusi diqqət yetirirdi. Bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva da aşıq sənətinə, onu yaşadanlara hörmətlə yanaşırlar. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yüksək diqqət və qayğıkeşliyi sayəsində Azərbaycanın aşıq sənəti YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Prezident İlham Əliyev isə 2019-cu ildə Tovuzda aşıq sənəti muzeyinin tikintisi barədə sərəncam imzalamış və 2020-ci ildə rayona səfəri çərçivəsində ölkəmizdə ilk və yeganə olan bu muzeyin açılışında iştirak etmişdir. Muzeyin istifadəyə verilməsi ölkəmizdə əsl mədəniyyət hadisəsi olmaqla yanaşı, aşıq sənətinin qorunması, təbliği və inkişafına dövlət qayğısının əyani sübutu olmuşdur".

Yubiley tədbirində o da vurğulanmışdır ki, Azərbaycanda aşıq sənətinin qorunmasında və inkişafında çoxsaylı şəxsiyyətlər olmuşdur. Aşıq Əkbər Cəfərov və Əlixan Niftəliyev də bu sənətin görkəmli nümayəndələrindəndirlər. Aşıq Əkbərin yaratmış olduğu məktəbdən yüzlərlə gənc faydalanmışdır. İndi də onun yolu ilə gedənlərin, onun sənətinə tapınanların sayı az deyil. Onlardan biri də bu günlərdə 80 yaşı tamam olan aşıq Əlixan Niftəliyevdir.

Daha sonra Milli Məclisin deputatı Arzu Nağıyev, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, Tovuz Xeyriyyə Cəmiyyətinin üzvü Vidadi Əhmədov, Aşıq Urfan Əli saz-söz sənətkarları Əkbər Cəfərovun və Əlixan Niftəliyevin Azərbaycan aşıq sənətinə verdiyi töhfələrdən danışmışlar.

Tədbirdə rəssam Fərman Hüseynov aşıq Əkbər Cəfərovun portretini ailəsinə təqdim etmişdir. Sonra hər iki aşığın ailə üzvləri çıxış edərək aşıq sənətinə, xalq yaradıcılığına yüksək qiymət verən hər kəsə minnətdarlıqlarını bildirmişlər.

Yubiley tədbiri rayon aşıqlarının çıxışları ilə yekunlaşmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 31 avqust.- S.7.